**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 94**

# QAFQAZ XALQLARININ OSMANLI İMPERİYASI TORPAQLARINA KÖÇÜ VƏ ONUN SƏBƏBLƏRİ (1860-1900-cü İLLƏR)

**Arif ƏLİZADƏ***
**Əjdər YUNUSOV****

Məqalə redaksiyaya daxil olmuşdur: 20 aprel 2024; çapa qəbul edilmişdir: 23may 2024; online-da çap edilmişdir: 25 iyun 2024.
Received: 20th of April, 2024; accepted: 23th of May, 2024; published online: 25th of June, 2024.

**Açar sözlər:** *Qafqaz xalqları, Osmanlı imperiyası, miqrasiya, nahiyə, koloniya*

## Giriş

Qərb ilə Şərqin, Şimal ilə Cənubun kəsişdiyi nöqtədə yerləşən Qafqaz tarix boyu öz dövrünün fövqəlgüclərinin nəzər-diqqətini daim özünə cəlb edib. Regionun geostrateji, geosiyasi, geoiqtisadi mövqeyi e.ə. IX əsrdən başlamış və bu günədək fövqəlgücləri qarşı-qarşıya qoymuşdur. Qafqaza nəzarət uğrunda orta əsrlərdə Sasani-Roma, Sasani-Bizans, Ərəb-Bizans, Ərəb-Xəzər, Monqol-Türk, Səfəvi-Osmanlı, yeni dövrdən etibarən Osmanlı-Rus, Qacar-Osmanlı-rus, XIX əsrin əvvəllərindən etibarən Qərb dövlətlərinin, xüsusilə İngiltərə və Fransanın regiona maraqları daha da artmış, lakin nəticə etibarilə regiona nəzarət XIX yüzilliyin əvvəllərindən rusların əlinə keçmişdir. Qeyd olunan dövrdən başlayaraq Qafqaz qanı axan yaraya çevrilmişdir. Görkəmli Qafqazşünas alim Veydenbaumun təbiri ilə desək, Qafqaz bir növ məzarlığa çevrilmişdir.

Rusların Qafqazı işğalı aborigen əhalinin öz ata-baba yurdlarından didərgin düşməsi, onların münbit torpaqlarının əlindən zorla alınması və həmin torpaqların kazaklara, ruslara və hətta ermənilərə verilməsi, nəhayət, əhalinin müəyyən qisminin zorla xristianlaşdırılması və dini əqidəsindən dönməyələrin taleyi müsəlman dövləti olan Osmanlı imperiyası torpaqlarına miqrasiyası ilə nəticələnmişdir.

Çar Rusiyasının Qafqaz xalqları əleyhinə apardığı repressiv tədbirləri görkəmli qafqazşünas alim E.Veydenbaum belə qiymətləndirmişdir: "Təbiət qafqazlılara yüksək səviyyədə istedad, qabiliyyət, igidlik və mərdlik bəxş etmişdir. Lakin, Rusiya imperiyasının yeritdiyi etnik təmizləmə siyasətinin nəticəsində, qafqazlılar xalqlar qəbiristanlığında uyumaqdadırlar" (3, s. 44).

Mövzuya müraciət etməyimiz heç də təsadüfi deyil. Məqsəd ruslar tərəfindən Qafqazın işğalının qaranlıqlarına işıq salmaq, bu məsələni obyektiv araşdırmaqdır. Mövzu ilə bağlı müxtəlif ədəbiyyatlara, həmçinin tədqiqat əsərlərinə üz tutulmuşdur.

* *tarix üzrə fəlsəfə doktoru, Qərbi Kaspi Universiteti*
*e-mail*: aarifelizade23@gmail.com
** *tarix üzrə fəlsəfə doktoru, dosent, Bakı Avrasiya Universiteti*
*e-mail:* ejder.yunusov@mail.ru

Qafqazın işğalı yerli əhalinin zorla öz tarixi yurdlarından sürgün edilməsi, miqrasiyaya məruz qalması, onların ata-baba torpaqlarının əllərindən alınaraq gəlmə ruslara, kazaklara, ermənilərə paylanması və s. məsələləri dərindən təhlil etmək qarşıda əsas məqsəd kimi durur. “Rus tarixçilərinin yazdığı tədqiqat əsərlərində tarixi həqiqətlər imperiyanın xeyrinə təhrif olunur, işğalı həyata keçirənlər cəsur qəhrəmanlar, vətənlərini müdafiə edənlər isə qaçaq-quldur, amansız qatillər kimi təqdim olunur. Rus qəhrəmanlarının «xidmətlərini» araşdırarkən öyrənirsən ki, Dəli Pyoturdan başlamış müasir dövrədək onların 90%-i öz amansızlıqları ilə fərqlənən işğalçılardır. Bu gün Peyğəmbərlər İsa Məsih zühur edib gəlsə Rusiyanın işğalçı siyasətini qınasa ruslar öz peyğəmbərlərini də separatçı, təxribatçı adlandırarlar” (1, s. 5).

Müasir dövrdə Qafqazın dünyanın ən qaynar bölgələrindən biri olması, çoxlu sayda münaqişə ocaqlarının mövcudluğu da regionun tarixi keçmişinə marağı artırmaqdadır. Çünki son onilliklərdə Qafqaz regionunda etnik, milli zəmində baş verən qarşıdurmaların, ərazi iddialarının doğru-düzgün aydınlaşdırılması üçün yüz illər öncə baş verənlərin obyektiv araşdırılması olduqca vacibdir. Məhz belə yanaşma həm də uzun müddət təhrif olunmuş bir çox məsələlərə aydınlıq gətirər. Nəzərə almaq lazımdır ki, sovet dövründə mövcud olmuş ideoloji konsepsiyaya görə Sovet İttifaqında yaşayan xalqlar arasında dostluq əlaqələrinin bilərəkdən süni şəkildə şişirdilməsi proletar beynəlmiləlçiliyinin təbliğ edilməsi, Rusiyanın müstəmləkəçilik siyasətinin ört-basdır edilməsi, qonşular arasında zaman-zaman yaranmış problemlərin üzərindən sükutla keçilməsini şərtləndirmiş, bununla da həmin problemlərin həllinə yardım etmək əvəzinə, onların daha ağrılı davam etməsinə səbəb olmuşdur. Qafqazda müxtəlif dinə, dilə, adət-ənənələrə malik 50-dən çox xalqın və etnik qrupların minilliklər boyu əsasən dinc, mehriban qonşuluq şəraitində yaşamaları öz etnik varlıqlarını, dillərini, dinlərini, adət-ənənələrini qoruyub saxlamaları da bu regionun tarixi keçmişinə marağı artıran önəmli faktordur.

## 1. Köçürülmənin səbəbləri və onun rus tarixçiləri tərəfindən saxtalaşdırılması

Qafqaz regionuna tarixən ən çox maraq göstərən dövlətlərdən biri də, Osmanlı və Rusiya dövlətləri olmuşdur. Nəhayət, Osmanlı-Rusiya qarşıdurması nəticə etibarilə rusların qələbəsi ilə başa çatmış və Qafqazda XIX əsrin 60-80-ci illərində müridizm, imamət məğlub edildikdən sonra Qafqazın Çar Rusiyası tərəfindən ilhaqı başa çatmış və həmin dövrdən etibarən yerli xalqlar etnik ayrı-seçkiliyə məruz qalmış, regionda etnik təmizləmə aparılmış və qafqazlıların bir çox yerlərə, xüsusilə Osmanlı imperiyası torpaqlarına köç dalğası başlamışdır. “Köç həm daxili, həm də xarici formada ola bilər. Ölkə daxilində olan köçə daxili, ölkə sərhədlərini aşaraq xaricə üz tutanlara isə xarici köç deyilir” (4, s. 23).

Xarici kök işğal, ya da digər zorlayıcı səbəblərdən öz ölkələrində yaşamaq haqqını itirmiş cəmiyyətlərin başqa ölkələrə getməyə məcbur qalmasıdır.

Qafqaz xalqlarının (ermənilər istisna olmaqla) Osmanlı imperiyası ərazisinə miqrasiyasını şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

I. XV-XVIII əsrlər
II. XIX əsrin birinci yarısı
III. XIX əsrin ikinci yarısı
IV. XX əsrin əvvəlləri
V. Dağlılar Respublikasının süqutundan XX əsrin 30-ci illərinə qədər.

Rusların qafqazlılara qarşı törətdikləri soyqırımları, ağlasığmaz vəhşilikləri rus generallarının özləri də etiraf edir. Bu dövrdə yaşamış rus generalı Sleptsov yazırdı: “Vəhşilərin (yəni qafqazlıların) bu gözəl torpaqda yaşamağa haqları yoxdur. Müqəddəs

imperatorumuz bizlərə onların silah gəzdirə biləcək bütün kişilərini məhv etməyi, əkinləri yandırmağı, gələcəkdə quldur doğmamaları üçün hamilə qadınların qarınlarını yırtmağı buyurmuşdur (5, s. 6).

"Qafqazlılar başa düşürdülər ki, tamamilə yad bir mentalitetə malik, yalnız işğalla – başqasına mənsub olanı güclə ələ keçirən milli hisslərə, adətlərə, hörmət qoymayan vəhşi xislətə malik imperiya yırtıcıları ilə sülh şəraitində yaşamaq mümkün olmayacaq. Ona görə də, onlar əhalisi, əsasən, müsəlmanlardan ibarət olan daha təhlükəsiz dövlət kimi Osmanlı torpaqlarına köç etməyə qərar vermişdilər.

Tarixi faktları təhlil edərkən məlum olur ki, Krım müharibəsindən sonra Balkanlara və Anadoluya doğru rusların yürüşləri dayandırılmışdır. Qərbə doğru rusların hərəkəti dayandırıldıqdan sonra bu dövlət Asiyaya istiqamət götürmüşdür. Osmanlı imperiyasının siyasi hüdudları xaricində olan Krım, Qafqaz, Türküstan kimi müsəlmanların yaşadıqları yerlərin sabitliyi, rahatlığı pozulmuşdur.

Svante Kornel qeyd edir ki, Çar Rusiyasının XIX əsrin 60-cı illərindən bəri həyata keçirilən daha geniş siyasətinin bir parçası Qafqazdan olduqca çox müsəlman azlıqlarını çıxartmaq siyasəti idi.

Qafqaz bu gün də özünün siyasi-iqtisadi, coğrafi və hərbi mövqeyinə görə dünya dövlətlərinin diqqət mərkəzindədir. Bölgənin üç böyük qitəsi olan Asiya, Avropa və Afrikanın ortasında olması mühüm siyasi strateji əhəmiyyət kəsb edirdi. Həmçinin Ağ dəniz, Egey dənizi, boğazlar və Mərmərə dənizi, Qara dəniz, Aralıq dənizi kimi bir-birinə bağlı iç dənizlərin mövcud olduğu bir su dəhlizinin, eyni zamanda Xəzər dənizi ilə Şərqə bağlandığı görünməkdədir. Məhz bu strateji əhəmiyyətinə görə, XVIII əsrdə Dəli Pyotr Qafqaza qarşı bir plan qurmağa başlayır. Əsas məqsəd Xəzər dənizi vasitəsi ilə Hindistana gedən ticarət yollarına sahib olmaq idi (2, s. 5).

Qafqaz xalqlarının (ermənilər istisna olmaqla) Osmanlı torpaqlarına miqrasiyası bir sıra səbəblərlə bağlıdır:

- Rus-Çərkəz (Qafqaz) müharibələri;
- Rusların yerli əhaliyə qarşı təzyiqləri;
- Osmanlı dövlətinin Rumelidəki xristianlara qarşı müsəlmanların sayını artırmaq;
- Boşaldılan yerlərdə xristian əhalisindən özünə dayaq yaratmaq.

1829-cu ildən 1864-cü ilədək davam edən qafqazlıların milli-azadlıq mübarizəsi məğlubiyyətlə başa çatandan sonra, rus çarı I Aleksandr müsəlman Qafqaz qəbilələrinin ölkəni tərk etmələri üçün bir ay vaxt vermişdir (7, s. 4).

Qafqaz xalqlarının tarixini dərindən araşdıran, qafqazşünas alim A.P.Berje digər tarixçilərdən fərqli olaraq köçürülmənin ağır nəticələrini obyektiv qeyd etmişdir. O, "Dağlıların Qafqazdan sürgünü" adlı əsərində yerli əhalinin öz tarixi yurdlarından Osmanlı torpaqlarına, xüsusilə Mesopotamiyaya köçürülməsini və onların əksəriyyətinin təbii iqlim şəraitinə uyğunlaşa bilməməsi səbəbindən həlak olduqlarını qeyd edir (11, s. 80).

Qafqazın Çar Rusiyası tərəfindən ilhaqına rus müəlliflərinin, xüsusilə qafqazşünas tədqiqatçılarının əsərlərində bir mənalı olaraq "əsaslandırılır" ki, guya Qafqaz xalqlarının İran və Osmanlı təhlükəsindən xilas olmaq üçün Çar Rusiyasına üz tutduqları qeyd edilir. Həmin tədqiqatçılar ayrı-ayrı bəzi hakim dairələrin Rusiyaya meyl etməsini bütün Qafqaz xalqlarının ünvanına şamil edirlər. Ancaq tarixi faktlar bunun tam əksini deyir. Əgər doğrudan da Qafqazlılar könüllü olaraq Rusiya imperiyasının himayəsini qəbul etmişdilərsə, onda nə üçün öz ata-baba yurdlarını tərk edib Osmanlı torpaqlarına sığınır və yeni şəraitə uyğunlaşana qədər min cür əzab-əziyyətə dözməli olurdular?

## 2. Köçürülənlərin məskunlaşdırılması

Qafqaz xalqlarının əksəriyyəti ruslardan canlarını xilas etmək üçün nicat yolunu müsəlman dövləti olan Osmanlı imperiyasına üz tutmaqda gördülər. Qafqaz müsəlmanlarının Osmanlı dövlətinə üz tutmaları təbii ki, dini birlikdən irəli gəlirdi. Hələ orta əsrlərin ən möhtəşəm dövlətlərindən biri olan Osmanlı imperiyasında ictimai-siyasi qurumlar və rəsmi ideologiya ilk növbədə dini prinsiplərə əsaslanırdı. Ümumiyyətlə, tədqiq etdiyimiz dövrdə də millət anlayışı dini inanclara əsaslanan icma mənasını verirdi.

1860-1862-ci illərdə köçənlərin sayı krımlılar, qafqazlılar da daxil olmaqla təxminən 230.000 olmuşdur (4, s. 24).

1865-ci ildə Kuban əyalətindən Osmanlı torpaqlarına 400.000 insan köç etməyə məcbur oldu. XIX əsrin 70-ci illərində Şimali Qafqazdan Osmanlı torpaqlarına təxminən 500.000 insan köç edib məskunlaşdı (7, s. 56).

Türk tarixçilərindən S.Kanat qeyd edir ki, 1860-ci ildə 4000, 1864-cü ildə isə 60.000-dən çox Çərkəz ailəsi Osmanlı torpaqlarına köç etmiş, onların yerində isə rus ailələri məskunlaşdırılmışdır.

Bəzi qaynaqlara görə, 1855-1864-cü illər arasında köçənlərin sayı 900.000 olmuşdur (9, s. 42).

1829-cu ildən 1864-cü ilədək davam edən qafqazlıların milli-azadlıq mücadiləsi məğlubiyyətlə başa çatandan sonra Rusiya imperatoru II Aleksandr müsəlman Qafqaz qəbilələrinin ölkəni tərk etməsi üçün bir ay vaxt verdi (7, s. 4).

Berjeyə görə, 1858-1866-cı illər arasında təxminən 493.194 insan Qara dəniz limanından yola düşərək Osmanlı torpaqlarına köç etmişdir. Ümumiyyətlə, XIX əsrin 60-cı illərindən 1876-cı ilə qədər Osmanlı torpaqlarına köç edənlərin sayı 1.200 mini ötmüşdür. Köç edənlərin Anadolu başda olmaqla Osmanlı torpaqlarına üz tutması həmin insanların türk və ya müsəlman Türkiyənin ana vətən və ya müsəlman ölkəsi olaraq görmələridir.

Qafqazlıların Osmanlı torpaqlarına köçü iki yolla mümkün olmuşdur. Bunlar: *Su* və *quru* yollarıdır. Köç edənlər daha çox Ordu, Samsun, Amasiya, Trabzon, Canık, Sivas, Ulubəy, Pərşənbə və Bolaman nahiyələrində məskunlaşmışlar.

1877-1878-ci il rus-Osmanlı müharibəsindən sonra 23 yanvar 1880-ci ilin məlumatına görə Samsunqda 12.116 çərkəz, 14824 azərbaycanlı, 1.894 gürcü, 91 Batum türkü, Canık sancağında 4.668 çərkəz, 881 azərbaycanlı, 25 gürcü, Ankara və Sivasda 7.028 çərkəz, 13.472 azərbaycanlı, 1.535 gürcü, 91 Batum türkü məskunlaşdırılmışdır (6, s. 300).

1866-cı il tarixində Ordu qəzasının mərkəzlə bağlı kəndlərinə, Bolotman, Hapsamenə, Ulubəy və Pərşənbə nahiyələrinə bağlı kəndlərə yerləşdirilən miqrantların məskunlaşdırıldıqları kəndlərin adları cədvəl 1-də verilib (7, s. 60).

Amasiya sancağında isə Qafqazdan köçən çərkəz və noqay mühacirlərinin bir hissəsi Celengeras, Veray, Gümüş Hacıköy, Mecidözü qəzalarında məskunlaşdılar (6, s. 313).

Bununla belə, Amasiyaya göndərilən, ancaq hələ ki, yerləşdirilmələri mümkün olmayan miqrantlar da var idi. Amasiya sancağında 720, Tenves qəzasında 67, Ulduzlu qəzasında 99, Əziziyə qəzasında 110, Gürün qəzasında 90 insan olmaq üzrə, ümumilikdə 1086 insan həmin ərazilərə köç etmiş, lakin məskunlaşdırılmaları gerçəkləşdirilməmişdir (6, s. 313).

Orta Qara dəniz bölgələrinə köçürülən çox sayda miqrantlar şəhər mərkəzlərinə yaxın, əkinə yararlı boş olan və daha çox qeyri-müsəlmanlardan boşalan ərazilərdə məskunlaşdırıldılar.

Samsunda vəzir körpüyə bağlı Daşqala məhəlləsi və Qadicayrı, Həmdiyyə, İshakiyə, Bagla kəndləri, Yadiyə bağlı Soğanlı və Ayvalı kəndləri, Qavar nahiyəsinə bağlı Sıralı kəndi, Uniyə qəzasına bağlı Günlük, Ağdərə, Sarıcalrık, Metropoli, Təpə Samanlıq, Hizarbaşı (Günlük), Çataltəpə, Fatsa qəzasına bağlı Çokdəyirman, Qabaq-daşı, Nəsti Meydan, Abaza Salihli, Duayeri, Bacanaq, Taxtabaş Köçelbucağı, Miri, Cacül, Kulpar, Dəmirculu, Çaltımır, Aliyyə, Çaltımarı Sufla kəndləri, Qaraquz qəzasına bağlı Çokdəyirman, Samur, Qadıncıq, Erikçeli, Quvancılı, Təkkə, Tevkür, Qaraçakur, Divani, Kömeriv, Qaracalı, Yusifli, Qaradaş, Hoylu, Sudərə, Sazçılar, Çerkezdağı, Yuxarıqozpinar, Təpəalan, Soğukpinar, Qarqucak və Kondon Selimiyə, Emiroğlu Çınarlığı və Qayguzus kəndləri, Çərşənbə qəzasına bağlı Veysəl Muslibəy, Hacıhamuş, Yuxarı Həsənli, Aşağıtəpə, Urak, Qızılot, Kestanepinarı, Aşağı Turqutlu və Dikböyük kəndləri miqrantların məskunlaşdıqları kəndlərdir (6, s. 314).

## Cədvəl 1. Ordu qəzasına məskunlaşdırılan miqrantlar

| **Qəza Nahiyə** | **Kəndlər** | **Ev** | **Ailə üzvləri** | **Qəza nahiyəsi** | **Kəndlər** | **Ev** | **Ailə üzvləri** |
|---|---|---|---|---|---|---|---|
| Ordu qəzası | Bahariyyə | 22 | 77 | Pərşənbə Nahiyəsi | Səlimiyə | 41 | 154 |
| | Sayiha-ulya | 40 | 150 | | Səlahiyə | 34 | 116 |
| | Samisa | 21 | 101 | | Bahariyə | 34 | 146 |
| | Burhaneddin | 79 | 352 | | Sultaniyə | 19 | 126 |
| | Şərəfiyyə | 0 | 109 | | Husubani | 17 | 73 |
| | Orhaniyyə | 5 | 139 | | Cerika | 8 | 151 |
| | Sultaniyə | 9 | 313 | | Nuriyə | 8 | 96 |
| | Osmaniyyə | 1 | 232 | | Nefahiyə | | 24 |
| | Bahadır | 4 | 102 | | Közağa | 0 | 45 |
| | **Ümumi say** | **391** | **1575** | | **Ümumi say** | **29** | **931** |
| Bolaman Nahiyəsi | Hamiyyə | 6 | 379 | Haysemana Nahiyəsi | Hayriyə | 8 | 58 |
| | Şevkiyə | 135 | 496 | | Cihadiyə | 1 | 214 |
| | **Ümumi say** | **32** | **875** | | Küşadiyə | 2 | 157 |
| Ulubəy Nahiyəsi | Fəthiyyə | | - | | Şevkiyə | 8 | 78 |
| | Refahiyə | | - | | **Ümumi say** | **38** | **507** |
| | **Ümumi say** | **7** | **355** | | | | |

Mühacirlərin daha çox məskunlaşdıqları məhəllələrdən biri də İzmit şəhəri və onun ətraf əraziləri idi. İzmit şəhərində məskunlaşdırılan çərkəz və noqaylar üçün vacib olan şəraitin yaradılmasına əmr verilmişdir (5, s. 4).

1864-cü ildə Qaraçayın da daxil olduğu Çərkəzdə rusların işğalı nəticəsində böyük bir köç hadisəsi (deportasiya) baş verdi. Rusiyanın Qafqazın ışğalının sonunda 80-ci illərdən etibarən Qaraçay-balkar xalqının bir hissəsi də digər Qafqaz xalqları ilə birlikdə Türkiyəyə köçməli oldu.

Araşdırmalardan bəlli olur ki, Osmanlı torpaqlarına köç edənlər yerli əhali və dövlət məmurları tərəfindən çox səmimi qarşılanmış və onlara hər cürə insani yardımlar edilmişdir. Təbii ki, belə də olmalı idi. Çünki Çar Rusiyasının ağalıq iddiasında olduğu Qafqazın müsəlman xalqları savaş boyunca özlərinin hamisi olduğu, güvəndiyi Osmanlı dövlətinə hərtərəfli yardım etmişlər.

Rus imperiyasının Qafqaz siyasəti bu gün də dəyişməyib. Qafqaz xalqlarına qarşı "parçala, hökmranlıq et" prinsipi bu gün də abxaz, gürcü-osetin, inquş-osetin və s. süni yaradılmış etnik münaqişə ocaqları Rusiya imperiyasının anti-Qafqaz siyasətinin bir həlqəsidir. "Ümumi Qafqaz evi"nin yaranmasına imkan verməmək də həmin siyasətin nəticəsidir.

İstər Çar Rusiyası, istər sovetlər və istərsə də bu gün ruslar anti-Qafqaz siyasətinin həyata keçirilməsində erməni faktorundan gen-bol istifadə edir və ona görə də imperiya ermənilərə hər cürə şərait yaradır və imperiyanın məkrli anti-Qafqaz siyasətində ermənilərdən bir alət kimi istifadə edilir.

**Nəticə**

Bu gün Qafqaz xalqlarının milli-azadlıq mücadiləsi ilə heç cür barışmaq istəməyən imperiyapərəst qüvvələr vaxtilə Qafqazı qan içində boğmuş Çar generallarının yolu ilə getmək istəyirlər. Hal-hazırda Qafqazda baş verən hadisələr buna sübutdur. Azərbaycanın 44 günlük qələbəsini həzm edə bilməməsi, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına hər cür cəhdlə mane olması, Ermənistanda qisasçıların qızışdırılması, Gürcüstanda Osetin, Abxaz münaqişəsi məhz, Rusiya imperiyasının mürtəcil Qafqaz siyasətinin nəticəsidir.

B.Napoleonun bir fikrini qeyd etmək yerinə düşər: "Süngü ilə bütün dünyanı fəth etmək olar, ancaq süngünün üstündə çox oturmaq olmaz".

Çar Rusiyasının Şimali-Qərbi Qafqazdakı hərbi əməliyyatları nəticəsində Qafqaz xalqlarının genefondu faktiki olaraq məhv edildi. Öz mənfur əməlləri barədə Yevdokimov çar II Aleksandra məlumat verirdi ki, 1864-cü ildə tarixdə misli görünməmiş bir hadisə başa çatdı: vaxtilə Kubandan Anapaya qədər, Qafqaz sıra dağlarından Bzıb çayındakı Sudjuk limanına qədər böyük bir ərazidə yaşayan, zəngin və hərb sənətini gözəl bilən çoxsaylı çərkəzlər bu torpaqlardan yox edildilər. Bu "qəhrəmanlığına" görə II Aleksandr qraf Yevdokimovu mükafatlandırmışdır.

Qeyd etdiyimiz ərazilərdə vaxtilə yaşamış çərkəzlərin 1864-cü ildə yalnız 3%-i öz doğma yurdlarında qalmışdırlar.

Sovet hakimiyyəti illərində Qafqaz xalqlarına qarşı törədilən genosid haqqında susqunluq nümayiş etdirildi. SSRİ-nin süqutundan sonra kabardinlər, çərkəzlər və abxazlar dəfələrlə 1763-1864-cü illər Qafqaz müharibəsində adıq (çərkəz) – abxaz soyqırımının tanınması ilə bağlı Rusiya parlamentinə müraciət etsələr də, hələlik bir cavab ala bilməmişlər.

20 may 2011-ci ildə Gürcüstan parlamenti Qafqaz müharibəsi illərində çərkəzlərin genosidə məruz qalmaları ilə bağlı bəyanat verərək, bu soyqırımı dövlət səviyyəsində tanımışdır. Oxşar layihə ukraynalı millət vəkilləri tərəfindən 2014-cü ildə Ukrayna Radasına da təqdim edilmişdir (5, s. 6).

Son dövrün araşdırmaları göstərir ki, təkcə XIX əsrin 60-80-ci illərində Qafqazdan 1 milyon 500 min aborigen öz doğma torpaqlarından Osmanlı ərazisinə qovulmuş, yarım milyondan çoxu isə öldürülmüşdür.

## ƏDƏBİYYAT


1. Əhmədoğlu Ə. Qafqaz əsirlikdə. Bakı, 2017, 240 s.
2. Əliyev Q. Qafqaz tarixi ən qədim çağlardan XVIII əsrin sonunadək. I hissə. Bakı: Elm, 2009, 448 s.
3. Hüseynova İ. H.Əliyev və Qafqaz sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, 615 s.
4. Akkaya T. Göç ve Değişim. İstanbul: Edebiyat Fakültesi Basımevi, 1979, 400 s.
5. Akyüz İ. Göç yolları üzerinde. Kafkaslardan Anadolu'ya Göç Hareketleri. Kars: MEB Yayınları, 2008, 200 s.
6. Hacısalihoğlu M. 1864 Kafkasya'da Rusların Müslümanlaşması, Savaş ve Sürgün. İstanbul: Balkar-İrcica, 2017, 250 s.
7. İpek N. Rumeli'den Anadolu'ya Türk Göçleri. Ankara: *Türk* Tarih Kurumu, 1994, 275 s.
8. Kurat A.N. Türkiye ve Rusya. İstanbul: Türkiye Cümhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi, 2005, 320 s.
9. Özbay O. Dünden bugüne Kuzey Kafkasya. Ankara: Kaf Der Yayınları, 1999, 320 s.
10. Yıldırım N. Rusya-Ermeni ilişkileri, 1914-1918. Ankara: Kök Yayınları, 1990, 500 s.
11. Гордин А. Россия в Кавказских войнах. СП: Журнал "Звезда", 2000, 180 с.
12. www.dunyabizim.com
13. www.static.bsu.az



**Резюме**

***Ариф Ализаде***
***Аждар Юнусов***

***Переселение Кавказских народов на земли Османской империи и его причины (1860-1900-е гг.)***

В данной статье рассматривается геостратегическая, геополитическая, геоэкономическая роль Кавказа в центре внимания сверхдержав мира с древнейших времен и до современных дней. Так же освещается возрастание военно-политического и экономического интереса России к Кавказу с середины XV века, кавказская политика Петра I, присоединение Кавказа к Российской империи в 80-е годы XIX века, проведение религиозно-этнической Дискриминации против местного населения и как последствия этой политики переселение кавказских мусульман на земли Османской Турции. Эти события были изучены на основе исторических фактов.

Насильственное депортация местного населения с исторической родины, дискриминационная политика империи и как следствие этого поиски убежища на османских землях как месте надежды, теплое отношение турок-османов к кавказцам, проявленная забота к ним (как материальные, так и моральные) были проанализированы историческими фактами.

Широко освещаются депортация аборигенов с родины, расселение некавказцев (русских, украинцев, казаков и армян) на исконных землях, их деспотизм, особенно в отношении армян на Кавказе, пакости Российской империи и правящих кругов Армении в кавказской политике и т.д.

В упомянутой статье также уделено особое внимание философии миграции (как внутренней, так и внешней). Исследована природа внутренних и внешних миграций и особое внимание уделено причинам, которые делают эти миграции необходимыми.

Мигрировали не только жители Северного Кавказа, но и народы Южного Кавказа. Например, за указанный период в различных регионах Османской империи, особенно в Анатолиц, были расселены 13 472 азербайджанских турков, 1535 грузин и 91 батумский турок.

Имеется две виды миграции: сухопутные и водные пути.

В статье также с фактами исследовано осуществление кавказской политики русских с XV века и конец этой хитрой и коварной политики в XIX веке. При написании статьи особое внимание было уделено исследованиям турецких и российских историков Справедливости ради

надо упомянуть, что были и российские историки, критиковавшие кавказскую политику Российской империи, которые подходили к этому вопросу объективен.

**Ключевые слова:** *Кавказские народы, Османская империя, миграсия, уезд, колония*

***Summary***

***Arif Alizadeh***
***Ajdar Yunusov***

***The Mıgratıon of the Caucasıan People to the Lands of the Ottoman Empıre and ıts Reasons (1860-1900 Years)***

This article discusses the geostrategic, geopolitical, and geo-economic role of the Caucasus at the center of attention of the world's superpowers from ancient times to the present day. It also highlights the growth of Russia's military-political and economic interest in the Caucasus since the middle of the 15th century, the Caucasian policy of Peter I, the annexation of the Caucasus to the Russian Empire in the 80s of the 19th century, religious and ethnic discrimination against the local population and, as a consequence of this policy, resettlement Caucasian Muslims to the lands of Ottoman Turkiye These events have been studied based on historical facts.

The forced displacement of the local population from their historical homeland, the discriminatory policy of the empire and as a result, taking refuge in the Ottoman lands as a place of hope, the warm attitude of the Ottoman Turks towards the Caucasians, the care shown to them (both material and moral) have been analyzed with historical facts.

The deportation of the aborigines from their homeland, the settlement of non-Caucasians (Russians, Ukrainians, Cossacks, and Armenians) in their ancestral homelands, their arbitrariness, especially of the Armenians in the Caucasus, the filthy tricks played by the Russian empire, the Armenian ruling circles in Caucasian politics, etc. Are widely covered.

The mentioned article also paid special attention to the philosophy of migration (both internal and external migration). The nuture of internal and external migrations has been investigated and special attention has been paid to the reasons that make these migrations necessary.

Not only did the inhabitants of the North Caucasus migrate, but also the peoples of the South Caucasus. For instance, during the mentioned period, 13,472 Azerbaijani Turks. 1,535 Georgians, and 91 Batumi Turks were settled in various regions of the Ottoman Empire, especially Anatolia.

There were to types of migration: land and water routes

In the article, the implementation of the Caucasian policy of the Russians since the 15th century and the end of this cunning and insidious policy in the 19th century have also been investigated with facts. While writing the article, special attention was paid to the research of Turkish and Russian historians. For the sake of justice. I must mention that there were also Russian historians who criticized the Caucasian policy of the Russian Empire. Who approached objectively.

**Key words:** *Caucasian peoples, Ottoman Empire, migration, region, colony*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Şükürov Kərim Kərəm oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.